# Rayon ağsaqqallar şurasının konfransı

Fevral ayının 5-də rayon ağsaqqallar şurasının konfransı keçirilmişdir. Konfrans iştirakçıları ilk öncə şəhər mərkəzindəki Heydər Əliyev parkına gəlmiş, burada ulu öndərin möhtəşəm abidəsi önünə gül dəstələri düzmüş, böyük şəxsiyyətin əziz xatirəsini yad etmişlər.

Konfransın rəsmi hissəsi «Sport» hotelin iclas salonunda davam etdirildi. Konfransda rayon icra hakimiyyətinin başçısı S. Abdullayev, rayonun ağsaqqalları, dəvət olunmuş ictimaiyyətin nümayəndələri iştirak etmişlər.





Konfransda rayon ağsaqqallar şurasının sədri N. Mustafayev 2009—2012-ci illər ərzində görülmüş işlər barədə hesabat məruzəsi ilə çıxış etmişdir.

Məruzəçi qeyd etmişdir ki, rayonumuzda ağsaqqallar və müharibə veteranları dövlət qayğısı ilə hərtərəfli əhatə olunmuş, onların sosial problemlərinə diqqət artırılmışdır. Cənab Prezidentin Azərbaycan əhalisinə, o cümlədən ağsaqqallarımıza, ahıllarımıza göstərdiyi qayğılar daha da artırılacaqdır.

N. Mustafayev vurğuladı ki, Qəbələ Ağsaqqallar Şurası Respublika Ağsaqqallar Şurasının ayrılmaz bir hissəsidir. Hazırda rayon üzrə 5000 nəfərdən çox yaşı 70-dən yuxarı olan ağsaqqal və ahıl vardır. Yaşlı nəsil bu gün Qəbələdə rayon ağsaqqallar şurası və 56 qəsəbə və kənd dayaq nöqtəsində birləşir. Rayon ağsaqqallar şurası əsasnaməyə uyğun olaraq hesabat dövründə hər il iş planı tərtib etmiş və iş planında göstərilən tədbirlərin həyata keçirilməsini təmin etmişdir. Hesabat dövründə hər rübdə bir dəfə şura yığıncağı keçirilmiş, burada müxtəlif məsələlər müzakirə edilmiş, görüləcək işlər müəyyənləşdirilmişdir. Zəruri ehtiyacı olan ağsaqqallara yardım və qayğı göstərilmişdir. Eyni zamanda ağsaqqallarımız gənclər arasında tərbiyə işi aparmış, onların müstəqilliyimizin qorunub saxlanmasında, vətənpərvərlik tərbiyəsinin gücləndirilməsində əllərindən gələni əsirgəməmişlər.

Konfransda çıxışlar olmuşdur.

Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev, ağsaqqallardan Şirin Şirinov, Aslan Cəlilov, İlqar Calalov və Müzəffər Rəhimov çıxış edərək qeyd etmişlər ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirir və nəticədə ölkənin sosial-iqtisadi tərəqqisi, onun beynəlxalq nüfuzu gündən-günə artır. Biz ağsaqqallar isə cənab Prezidentin siyasətini daim dəstəkləyərək ona arxa olmalıyıq.

Konfransda müvafiq qərar qəbul edilmişdir.

Konfransda təşkilati məsələyə baxıldı. Rayon ağsaqqallar şurasının 13 nəfərdən ibarət idarə heyəti seçilmişdir. Nazim Mustafayev ağsaqqallar şurasının sədri və ağsaqqalların respublika qurultayına nümayəndə seçildi.

**Aslan CƏLİLOV.**


## Bütün iş adamlarına, vətəndaşlara!

*“Qəbələ” qəzetinin reklam xidməti sizinlədir*

Siz sərfəli müqavilə qiymətləri ilə hər nömrəsi 2.300 nüsxə tirajla çap olunan və rayonun bütün bölgələrində kütləvi tirajla yayılan, muzeylərə, kitabxanalara, Bakı şəhərində ayrı-ayrı xüsusi idarə və müəssisələrə, abunəçilərə göndərilən qəzetin

**reklam xidmətindən istifadə edə bilərsiniz**

Qəzetin səhifələrində övladlarınızın, yaxınlarınızın, dostlarınızın ad günlərini, toy şənliklərini, qeyri-adi günlərini təbrik etmək sizə böyük şərəf və duyğu gətirə bilər.

Qəzetdə ev alqı-satqısı, dəyişdirilməsi, sənədlərin itməsi və ya tapılması, digər məsələlər barədə elanlar da dərc olunur.

**TİCARƏT MÜƏSSİSƏLƏRİ, ŞİRKƏTLƏR!**

Qəzet məhsullarınızın satılması, daşınması, bu və ya digər işlərin görülməsi, habelə katirovka sorğularının dərc olunması barədə reklamlar və elanlarla da sizin xidmətinizdədir.

**İstədiyiniz vaxt buyurun, gəlin, zəng edin:**

**Ünvanımız:** Qəbələ şəhəri, Nizami küçəsi, 3.

**Telefonlar:** 5-19-14, 5-15-56, Mob: 050-328-11-42.



Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi
M. Ə. Rəhimov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Nizami küçəsi, 3.
Redaktor: 5 - 19 - 14.
Ümumi: 5 - 15 - 56.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir.
“Kapitalbank”ın Qəbələ filialında hesab № 33080019444900218149
VÖEN: 4400103601
Lisenziya AV № 022611

Qəzet “Qəbələ” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.
Sifariş №